UOT 94(479.24)

# ERMƏNİ HAYLARININ AZƏRBAYCAN ƏRAZİSİNƏ HƏRBİ TƏCAVÜZÜ VƏ XALQIMIZA QARŞI SOYQIRIM ETMƏSİ

***Rəsul Qərib oğlu Mehdixanov***
***DİN-nin Daxili Qoşunlarının Akademiyası***
***mehdixanov@bk.ru***

**Açar sözlər:** *Asala, Daşnaki, haylar, Qarabağ, ittifaq, muxtariyyət.*

*Məqalədə ermənilərin Azərbaycana hərbi təcavüz etməsinin səbəb və onun nəticələri araşdırılmışdır. Ermənilər Azərbaycan ərazisinə sahib çıxmaq üçün XVIII əsrin əvvəllərindən başlayaraq bu sərsəm xülyanı XX əsrin sonlarına qədər davam etdirmişlər. XX əsrin əvvəllərindən başlayaraq azərbaycanlılara qarşı cinayətlərin törədilməsi və 1918-20-ci illərdə xalqımıza qarşı törədilmiş soyqırım araşdırılmış, dünya ictimaiyyətinin xəbərdar olması üçün az da olsa səy göstərilmişdir. Nəhayət SSRİ-də hakimiyyətə gələn ermənipərəst M.S.Qarbaçovun xeyir-duası ilə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün hərəkətə keçdilər. Ermənilər istədiklərinə nail olmaq üçün bütün dünyada yaşayan erməni lobbilərinin və sovet imperiyasının köməyindən istifadə edərək Azərbaycanın 20% ərazisini işğal etməyə nail oldular.*

# АРМЯНСКАЯ АГРЕССИЯ ПРОТИВ АЗЕРБАЙДЖАНА И ГЕНОЦИД ПРОТИВ НАШЕГО НАРОДА

***Расул Мехдиханов***

**Ключевые слова:** *асала, дашнаки, лошади, карабах, альянс, автономия*

*В статье рассматриваются причины и последствия агрессии Армении против Азербайджана. С начала восемнадцатого века это жестокое слияние продолжалось до конца двадцатого века, чтобы занять территорию Азербайджана. С начала двадцатого века расследовались преступления против азербайджанцев и геноцид, совершенный против нашего народа в 1918-20 годах, и было предпринято мало усилий, чтобы информировать об этом мировую общественность. Наконец, по благословению проармянца М. Карбахова, пришедшего к власти в СССР, они приняли меры по объединению Нагорного Карабаха в*

*Армении. Армянам удалось оккупировать 20% территории Азербайджана, используя армянские лобби по всему миру и Советскую империю для достижения того, чего они хотят.*

## ARMENIAN AGGRESSION AGAINST AZERBAIJAN AND GENOCIDE AGAINST OUR PEOPLE

***Rasul Mehdixanov***

**Key words:** *Asala, Dashnaki, horses, Karabakh, alliance, autonomy.*

*The article examines the causes and consequences of the Armenian aggression against Azerbaijan. Since the beginning of the eighteenth century, this brutal fusion continued until the end of the twentieth century to occupy the territory of Azerbaijan. From the beginning of the twentieth century, crimes against Azerbaijanis and genocide committed against our people in the 1918-20s were investigated and little effort was made to keep the world public aware of it. Finally, with the blessing of pro-Armenian M. Karbachov, who came to power in the USSR, they took action to unite Nagorno-Karabakh in Armenia. Armenians managed to occupy 20% of Azerbaijan's territory by using Armenian lobbies all over the world and the Soviet empire to achieve what they want.*

Erməni millətçi faşistləri tərəfindən türk dünyasına və xalqımıza qarşı həyata keçirilən milli soyqırım və təcəvüzkarlıq siyasətinn iki yüz ilə yaxın tarixi vardır. Ermənilərin bu mənfur siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq və qədim Azərbaycan ərazisində erməni ideoloqlarının uydurduqları "Böyük Ermənistan" dövlətini yaratmaq olmuşdur [4, 391]. Erməni şovinizmi məqsədlərinə çatmaq üçün müəyyən tarixi dövrlərdə dünyanın aparıcı dövlətlərinin planlarına uyğun müntəzəm surətdə ideoloji, hərbi və təşkilati xarakterli işlər aparmış, ən müxtəlif üsul və vasitələrdən istifadə etmişlər. Eyni zamanda erməni tarixçiləri və ideoloqları xalqımızın tarixini kökündən saxtalaşdırmağa cəhd göstərmiş, maddi-mədəniyyət abidələrimizi dağıtmış, toponimlərimizi dəyişmişlər.

XIX-XX əsrlərdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən müxtəlif vaxtlarda məqsədyönlü şəkildə həyata keçirilən terror, etnik təmizləmə və soyqırım siyasəti Azərbaycan tarixinin faciələrlə müşaiyət olunan çox ağrılı mərhələlərini təşkil edir. Bu millətçi vandalistlərin əsas məqsədi azərbay-

canlılara qarşı çox böyük cinayətlər törətmək, xalqımızı qorxu altında saxlayaraq əzəli torpaqlarımızdan qovub çıxartmaq olmuşdur [11, 456]. Təkcə XX əsrdə xalqımız dörd dəfə (1905-1906, 1918-1920,1948-1953 və 1988-1993) ermənilərin soyqırım və etnik təmizlənmə siyasətinə məruz qalmışdır. Bu işdə haylara çar Rusiyası da xeyir-dua vermiş və hətta silah-sursatla köməklik göstərmişdir. Belə ki, çar Rusiyası XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə İrandan və Türkiyədən çoxlu sayda ermənin köçürülməsini həyata keçirmişdir [6, 618]. Bununla da köçürülmə nəticəsində bölgədə ermənilərin sayı süni şəkildə çoxaldılmış və XX əsrin əvvəllərindən başlayaraq ermənilərin Azərbaycana qarşı ərazi iddialarının baş qaldırmasına səbəb olmuşdur.

Xalqımızın minillik tarixinin son səhifələrindən olan XX əsr özünü müasir nəsillərimizin yaddaşına soyqırım, deportasiya, acı faciələrlə, sayısız-hesabsız fəlakətlərlə həkk olundu. 1905-1906-cı il fəlakəti, 1918-1920-ci illərdə soyqırım, 1948-1953-cü illərdə deportasiya, eləcə də 1990-cı ilin yanvarından üzü bəri xalqımızın verdiyi çoxsaylı şəhidlər, Cəmilli, Malıbəyli, Daşaltı, Xocalı faciələri, həmçinin atəşkəs dövrünün qurbanlarının xalqımıza gətirdiyi sarsıntılar indi də davam etməkdədir.

Erməni şovinist millətçiləri və onların hərəkətverici ideoloqları sovet canişinləri ilə əlbir olaraq ordusu, silahı olmayan dinc xalqımıza qarşı bütün bu qəsbkarlıq, işğalçılıq və vəhşilik aktlarını XX əsrin qısa bir zaman kəsiyində həyata keçirdilər.

Erməni millətçiləri rus qəsbkarlarına arxalanaraq dünyada ağlagəlməz cinayətlər törətdilər. 1796-cı ildə qədimdən əzəli şəhərimiz olan Dərbənd rus qəsbkarları tərəfindən tutulduqdan sonra erməni keşişi bütün erməni millətinə müraciət etdi. “Nəhayət Allah üzünü Qafqazda yaşayan xristianlara çevirmişdir. Birləşməliyik, elə birləşməliyik ki, ali baş komandan (V.Zubov nəzərdə tutulur) bizdən razı qalsın. Əlahəzrətə sədaqətimizlə biz Qafqazı müsəlmanlardan təmizləyə bilərik. Sayıq olun, ey mənim həmvətənlərim”.

Dərbəndin işğalı Qafqazın minillik həyat tərzini pozdu. Rusiya imperiyası İran imperiyası ilə birlikdə Azərbaycanı parçaladı, onu hər cəhətdən zəiflətdi və gələcək milli dirçəliş üçün faktiki olaraq heç bir imkan qoymadı. Bütün bunlardan ruhlanan, özlərini rusların “müttəfiqi” adlandıran ermənilər I Pavelə, I Pyotra, Yekaterinaya və sonrakı rus imperatorlarına onları müsəlman “zülmündən” xilas etmək üçün müraciət edirdilər. Ermənilər bu gün də dünyanın nüfuzlu dövlətlərinin rəhbərlərinə və qanunverici orqanlarına bu məzmunda müraciətlər etməkdə davam edirlər.

Rusiyada Sovet hakimiyyəti elan edildikdən sonra noyabrın 2-də Bakıda Sovet hakimiyyəti elan edildi. Bakı Soveti İcraiyyə Komitəsinin sədri vəzifəsinə S.G.Şaumyan seçildi. Beləliklə, Bakı Qarnizonunda olan rus və erməni əsgərlərinə arxalanan bolşeviklər hakimiyyəti ələ keçirdilər. Bununla da

Azərbaycanın qara günləri başladı. 1917-ci ilin noyabr ayında tərkibində Azərbaycan əhalisinin də təmsil olunduğu Zaqafqaziya komissarlığı təsis edildikdə Bakı onun səlahiyyətlərindən kənarda qalan yeganə şəhər idi. Bakı sovetinin icraiyyə orqanının yaradılması ilə bağlı S.Şaumyan təklif verdi. Yalnız sovet hakimyyətini müdafiə edən partiyaların nümayəndələri icraiyyə orqanına daxil oldular. Bununla da Bakı sovetində bolşevik-daşnak ittifaqı rəsmi xarakter almağa başladı. 1917-ci ilin axırlarından etibarən hakimiyyət quruculuğunu həll etmək məqsədilə bolşeviklər Bakıda hərbi cəhətdən möhkəmlənməyə başladılar. 1917-ci il dekabrın 5-də Türkiyə ilə Zaqafqaziya komissarlığı arasında imzalanmış Ərzincan barışığından sonra Qafqaz cəbhəsindən qayıdan rus əsgərləri Bakıdan keçib Rusiyaya getməli idilər. Rus ordusu öz silah sursatlarını ermənilərə, gürcülərə və Bakı bolşeviklərinə verdiyindən Azərbaycan əhalisi silahlı düşmən qarşısında əliyalın qalmışdılar. Belə vəziyyətdə Zaqafqaziya Komissarlığındakı Azərbaycan fraksiyası ordunu bərabər silahlandırmaq tələbini irəli sürdükdə, hökümət geri qayıdan rus polklarından birinin tərksilah edilib silahlarının azərbaycanlılara verilməsinə razılıq verdi. Bu razılaşmaya uyğun olaraq 1918-ci ilin yanvarında Şamxor stansiyasından keçən rus polku tərksilah edildi. Hər iki tərəfdən ölən və yaralanan olmasına baxmayaraq bu əməliyyat azərbaycanlılar üçün çox zəruri addım idi.

Bu hadisəndən sonra Şaumyan başda olmaqla bolşeviklər Azərbaycana qarşı milli qırğın törətmək və onlara divan tutmaq üçün istifadə etməyə cəhd göstərdilər. lakin 1918-ci ilin yanvarında ermənilərin həyata keçirmək istədiyi təxribat baş tutmadı. Bolşeviklər və Daşnaksütun partiyasının üzvləri olan millətçi ermənilər Bakıda hərbi cəhətdən möhkəmlənmək üçün daha bir addım atdılar. 1917-ci ilin dekabrında Qafqaz ordusunun ikinci diyar qurultayında milliyətcə erməni olan Q.H.Korqanovun rəhbərliyi ilə yaradılmış Hərbi İnqilab Komitəsi Tiflisdən Bakıya gətirildi. Bu azmış kimi, 1918-ci ilin yanvarında Qırmızı Qvardiya və Xəzər donanmasının Bakı Sovetinə tabe edilməsi haqqında qərar qəbul edildi [13, 14-16].

1918-ci ilin martın 3-də S.Şaumyan İ.Stalinə yazdığı məktubunda Bakının qısa müddət ərzində hərbiləşdirilməsi üçün vəsait ayrılmasını xahiş edirdi. Vəsaitin göndərilməsi Qafqaz Ordusu Hərbi İnqilab Komitəsinin Bakıda mərkəzləşməsi hərbi donanmanın yenidən qurulmasını zəruri edirdi. Daşnaklar hərbi hissələri daha da silahlandırmaq məqsədi ilə S.Şaumyan İ.Stalinə yazırdı: "Daşnaklar üçün top məsələsini xahiş edirəm elə rəsmiləşdirəsiniz ki, məsələnin qəti həlli burada məndən asılı olsun". Yaxın Şərq cəbhəsindən qayıdan 8 min erməni əsgəri də Qafqaz cəbhəsindən gətirilmiş qüvvələrlə birlikdə Bakıda saxlanıldı. Nəticədə 1918-ci il mart ayının əvvəllərində düşmən Bakıda 20 minlik silahlı qüvvə toplamış oldu [7, 116].

Bakıda bolşeviklərin və erməni partiyalarının ən güclü rəqibi müsavatçılar idi. Müsavatçıların muxtariyyət uğrunda mübarizəsi və onların müsəlman əhalisi arasında nüfuzunun artması Bakı Sovetini çox bərk narahat edirdi. Bolşeviklər qırğın törətməklə Bakıda Müsavatın sosial bazasını məhv etməyə nail olmaq ümidində idilər. Martın 15-də Bakı Sovetinin iclasında “Cənubi Qafqazda işlərin vəziyyəti” mövzusunda məruzə edən S.Şaumyan əslində azərbaycanlıların soyqırımına başlamağa xeyir-dua verdi.

1918-ci ilin yanvarında Bakıya gəlmiş müsəlman korpusunun komandanı general Talışınskinin həbs edilməsi şəhərin müsəlman əhalisinin həyacanına səbəb olmuşdu.

Martın 24-də Lənkərana yola düşmək ərəfəsində şəxsi heyəti müsəlmanlardan ibarət olan “Evelina” gəmisinin bolşeviklər tərəfindən tərksilah edilməsi xalqın səbr kasasını daşdıran son addım oldu. Müsəlman məscidlərinə toplaşan əhali müsadirə edilmiş silahların qaytarılmasını tələb etdilər. Bolşeviklərin bu tələbin ödəniləcəyini vəd etdiklərinə baxmayaraq, bunun əksinə martın 30-da qarşıdakı döyüşlərə rəhbərlik etmək üçün Bakı Sovetinin İnqilabı Müdafiə Komitəsini yaratdılar. Martın 30-da M.Ə.Rəsulzadə Azərbaycan diviziyasından alınmış silahları “Hümmət” komitəsi vasitəsilə geri qaytarmağa cəhd göstərsə də, bu, bir nəticə vermədi.

Elə həmin günün axşamı Bakıda qətllər başlandı. Mart qırğını başlayanadək hiyləgər ermənilər özlərinin bitərəfliyini elan etsələr də, “Daşnaksütun” və Erməni Milli Şurası Bakı Sovetini müdafiə etdilər. Nəinki silahlı erməni əsgərləri, habelə, Bakıdakı erməni ziyalıları da Bakı Soveti tərəfindən döyüşə qoşuldular. Erməni fitvası ilə hərbi gəmilər şəhərin müsəlmanlar yaşayan hissəsini top atəşinə tutdular. Ermənilər rus matroslarını inandırmağa nail ola bilmişlər ki, guya müsəlmanlar rus əhalini qırırlar. Azərbaycanlılar kütləvi qırğının qarşısını almaq üçün martın 31-də döyüşü dayandırırlar. Lakin buna baxmayaraq hadisələrin əsl faciəli mərhələsi bundan sonra başlanır. Məhəmmədli və Zibillidərə deyilən məhəllələrin əhalisi tamamilə məhv edilir. Erməni vandalları azərbaycanlı qadınlara daha çox əzab və işgəncə verərək öldürürdülər.

Bakı şəhərində azərbaycanlılara məxsus bütün ictimai binalar, mədəniyyət ocaqları dağıdılır. Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi “İsmailiyyə” binası yandırılır.

Mart hadisələri təkcə Bakı ilə məhdudlaşmır. Aprel ayının ilk günlərindən Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul və Salyanda da belə cinayətlər törədilir. Daşnak ermənilərin talanlarından ən çox ziyan çəkən Şamaxı qəzası olur. Ermənilər bu qəzanı tamamilə müsəlmanlardan təmizləmək istəyirdilər. Odur ki, Şamaxı qəzasında 58 kənd yandırılaraq dağıdılır. Bu qəzada 7 mindən çox insan qətlə yetirilir. Bunlardan 1653 nəfəri qadın, 965 nəfəri uşaq idi. Şamaxıda qətliam aprelin axırlarınadək davam edir [7,109].

Aprel ayında Quba qəzası da erməni terroruna məruz qalır. Qubada 122 kənd dağıdılır, yüzlərlə dinc əhali məhv edilir. Azərbaycanda mart-aprel qətlləri törətməklə ermənilər qarşılarında bir məqsəd qoymuşdular. Əsas məqsəd Bakı quberniyasında qələbə çaldıqdan sonra bütün Azərbaycanı işğal etmək idi. Bakı, Şamaxı, Kürdəmir, Salyan, Quba, Lənkəran şəhərləri tutulduqdan sonra silahlı quldurların hədəfi Gəncə idi. Xalq Cümhuriyyətinin yaranması düşmənlərin planlarını pozur.

Erməni faşistləri türk-müsəlman qırğınını Qarabağ, Naxçıvan, Zəngəzur və Göyçə mahalına yaymaqla "Ermənistan" yaratmaq xülyalarını reallaşdırmağa çalışırdılar.

1918-ci ilin avqustunda erməni quldurları tərəfindən Qurdlar, Şəki, Vağudi, Sisyan dağıdılaraq yandırılmış, 708 nəfər qətlə yetirilmişdi. 1918-ci il noyabrın 26-da Sisyan və Mehri dərəsində kəndlər dağıdılır və 200 nəfər öldürülür. Andranik Qərbi Azərbaycan qəzasında türk-müsəlman əhaliyə qarşı vuruşmadan yayınan erməniləri asdırırdı [10, 136].

Andranikin quldur dəstəsi və yerli ermənilər Zəngəzura gələn (Gorus) ingilis, fransız missiyasının tələblərinə, verdikləri vədlərə məhəl qoymayaraq türk-müsəlman kəndlərini dağıdır, əhalisini vəhşicəsinə qırırdılar. 1918-ci il dekabrın 1 və 2-də ermənilər Ağdərə, Gülyanaq və Dovşanlı kəndlərinin müsəlmanlar yaşayan hissəsinə, Sırxavəndə və digər yerlərdə viranedici qırğınlar törədirlər. Bu ərazilərdə törədilən vəhşiliklərdə Andranikin göndərdiyi türkiyəli və irəvanlı ermənilər də iştirak etmişlər. Andranikin qətliamlarını ingilislər açıqca himayə edirdilər. Zəngəzurda və qonşu ərazilərdə törədilən vəhşiliklərin miqyasının genişlənməsini görən Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov Azərbaycan hökumətinə raport ünvanlayır.

Daşnak ermənilərin törətdikləri cinayətlərin miqyasının genişlənməsinə imkan verməmək üçün N.Nərimanov Cənubi Qafqazda yerləşən XI Qızıl Ordu rəhbərliyinə müraciət edir. XI Qızıl Ordu Zəngəzurda daşnak qüvvələrini darmadağın edir və Naxçıvana daxil olur. Erməni özbaşınalıqlarının qarşısını almaq üçün Naxçıvan İnqilab Komitəsi Abbasqulu bəy Şadlinskini Naxçıvana dəvət edirlər. Naxçıvanda təşkil olunan Abbasqulu bəy Şadlinskinin "Qırmızı taboru" qarşısında 1920-ci il oktyabrın sonlarına qədər Şərur və Vedibasar mahallarının erməni daşnaklarından təmizlənməsi vəzifəsi qoyulur. Şahtaxtı və Xok yaşayış məntəqələrində ermənilər ağır məğlub oldular. Stalinin və Leninin göstərişi ilə Qazaxda dayanan və erməni bolşeviklərinin sərəncamında olan XI Qızıl Ordu noyabrın 29-da İcevan şəhərinə daxil oldu. Mikoyanın, Andranikin, Dronun, Hamazapsın döyüşçüləri də bolşevik alayının tərkibində İcevana daxil oldu. Ermənistan Sovet Sosialist Respublikası elan edilir.

Özlərini məzlum xalq kimi bütün dünyaya bəyan edən ermənilərin 1918-20-ci illərdə azərbaycanlılara qarşı törətdikləri cinayət və soyqırımı araşdırmaq və tədqiq edilməsini Sovet imperiyası "xalqlar dostluğu" adı altında

mövcudluğu dövründə yasaq etmişdir. SSRİ-nin süqut etməsindən sonra Azərbaycanımızın müstəqillik əldə etməsi XX əsrin əvvəllərində erməni haylarının azərbaycanlılara və eyni zamanda bütün türk dünyasına qarşı törətdikləri cinayətləri açıb göstərmək və bütün dünya ictimaiyyətinə çatdırmaq mümkün oldu. Bu mümkünlüyü H.Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı və 1998-ci il 26-sı mart tarixli fərmanı oldu. Bu fərmanla XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş soyqırımlara hüquqi qiymət verildi və bütün dünya ictimaiyyəti bundan xəbərdar oldu.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülmüş haylar sovetlər dönəmində bütün siyasi, iqtisadi, sosial və mədəni məsələləri əhatə edən muxtariyyətə malik olsalar da, erməni millətçiləri ərazi iddialarından əl çəkməmiş və bir neçə dəfə bu məsələni yüksək elita qarşısında ortaya atmışlar. Lakin öz istəklərinə nail ola bilməmişlər [9, 26]. 70 il ərzində istəklərinə nail ola bilməyən ermənilər nəhayət ermənipərəst M.S.Qorbaçovun hakimiyyətə gəlməsindən sonra fəllaşmış, Dağlıq Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsinin zəruriliyini yenidən ortaya atmışlar [9, 393].

M.S.Qorbaçov Sovetlər Birliyində hakimiyyətə gəldikdən sonra sovet ölkəsinin ictimai-siyasi, iqtisadi və mənəvi həyatında böhran yarandı və illər ötdükcə bu böhran daha da dərinləşdi. Böhranın baş verməsinin əsas səbəbi bacarıqlı və iradəli rəhbər tələb edən sosialist cəmiyyətinin uzun müddət onu idarə edə biləcək, xüsusi keyfiyyətlərə sahib liderə malik olmaması idi. 1985-ci ildən sovet imperiyasına rəhbərlik edən Sov.İKP MK-nin Baş katibi M.S.Qorbaçov sosialist dövlətini düşdüyü bu ağır iqtisadi böhrandan xilas etmək yollarını aramaq əvəzinə əksinə olaraq dövlətin düşdüyü böhranlı vəziyyəti daha da dərinləşdirib, dövlətin ictimai strukturunu dağıtmağa çalışmışdır. Bildiyimiz kimi M.S.Qorbaçov 70-ci illərdə Stavropol diyar komitəsinin birinci katibi işləyərkən erməni mafiyası ilə əlaqəli şəkildə iş birlikləri qurmuşdu. Baş katib vəzifəsini ələ keçirdikdən sonra əvvəllər əlaqədə olduğu erməniləri dövlətdə yüksək vəzifələrə təyin etdi. Bundan sonra ermənilərin bir əsrə yaxın ələ keçirmək istədikləri Qarabağ məsələsini onların xeyrinə həll etməyə başladı. Lakin bu məsələdə Qorbaçova, həm də erməni daşnaklarına mane ola biləcək Kremldə bir qüvvə var idi. O da dünya şöhrətli siyasətçi Heydər Əliyev idi.

H.Əliyevin istefasından bir gün sonra Aqanbekyanın Fransanın "Humanite" qəzetinə verdiyi müsahibədə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin vaxtının çatdığını bildirmişdi. Çünki artıq erməni vandalislərinin qarşısında sipər kimi duran Heydər Əliyev bütün vəzifə səlahiyyətlərindən uzaqlaşdırılmış və bundan sonra erməni daşnaklarının əl-qolu açılmışdır. Çox sonralar M.S.Qorbaçov özü Türkiyənin Amerika Universitetindəki çıxışında etiraf etmişdir ki, "həyatımın məqsədi kommunizmi məhv etmək olub". Belə bir fikirdə olan iradəsiz şəxsiyyətin rəhbərlik etdiyi sosialist dövlətinin dağılması

təbii idi. Dövlətin zəifləməsinin digər bir sıra səbəbləri var idi. Belə ki, dövləti qanunlar deyil partiya elitasının maraqları idarə edirdi. Qanunsuzluq, ona qarşı mübarizənin səmərəsizliyi adamları siyasi həyata münasibətdə laqeyidləşdirir və biganələşdirirdi.

Sovetlər birliyinin iflası bir sıra xarici səbəblərlə də şərtlənirdi. Belə ki, dünya dövlətlərinin mövcud satış və xammal bazarlarının tranzit imkanlarını yeni real qüvvələr arasında müvafiq olaraq bölüşdürmək cəhdləri SSRİ-nin iflasını sürətləndirdi.

Xarici siyasətdəki uğursuzluqlarla yanaşı daxili siyasətdəki yeniliklər də özünü doğrultmadı. Bu uğursuzluq özünü "Yenidənqurma"da daha qabarıq göstərirdi. "Yenidənqurma" iqtisadiyyata çox ciddi zərbə vurdu və sonda cəmiyyəti siyasiləşdirdi. Kommunist partiyasının nüfuzunu sarsıtdı və imperiyanın iqtisadi böhranını daha da dərinləşdirdi. Mərkəzdənqaçma qüvvələrin əl-qolu açıldı. Onlar üçün daha əlverişli şəraitlər və imkanlar yarandı. Bunların qarşısını ala bilmək üçün Moskva bir neçə məkrli planlar həyata keçirməyə başladı. Əsrlər boyu Rusiyanın sınaqdan keçirtdiyi üsulu respublikalar arasında və daxilində konfliktləri qızışdırdı. Çünki türkdilli xalqların Türkiyə Respublikasına meylinin artmasından şovinistlər, xüsusi ilə də erməni millətçiləri olduqca narahat idilər. Bu yaxınlaşma onlar üçün potensial təhlükə kimi qiymətləndirilirdi. Moskva mərkəzdənqaçan qüvvələri zəiflətmək üçün ənənəvi üsuldan "parçala və hökmranlıq et" siyasətindən daha geniş istifadə etdi, milli münaqişələri qızışdırdı, xalqlar arasında qanlı nifaq saldı. İmperiyanın müxtəlif bölgələrində əvvəldən məharətlə hazırlanmış milli münaqişə ocaqları alovlandırıldı. İlk öncə bundan narahat olan Mərkəz mühüm geosiyasi əhəmiyyəti olan Azərbaycanı və bütünlüklə Cənubi Qafqazı əlində saxlamaq üçün yenidən uydurma Dağlıq Qarabağ problemini qızışdırdı. Türkiyənin bu regionda nüfuzunun artması rus şovinizmini narahat etməyə bilməzdi. Odur ki, rus imperiyası yenə erməni millətçilərini bu işdə əməli silahına çevirdi [5, 11, 13, 21].

Həm Rusiya, həm də Avropa tərəfindən himayə olunduqlarını görən erməni millətçiləri türk soyqırımına, terrora əsaslanan qanlı siyasətlərini "Böyük Ermənistan" dövləti yaratmaq kimi sərsəm ideyalarını reallaşdırmaq üçün yenidən fəallaşdılar [4, 133].

Ermənistan Respublikasının və erməni diasporunun maliyyə təşkilatının yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter almışdır. Bunun nəticəsi kimi Moskva 1984-cü ilin oktyabr ayında Azərbaycanın Gədəbəy və Qazax rayonlarının 4 min hektara yaxın ərazisi Ermənistana verildi. Xalq buna öz etirazını bildirərək nəqliyyat yollarını bağladı. Xalqın etiraz səsini susdurmaq üçün ordunun köməyindən istifadə olundu. Azərbaycanda vəziyyəti gərginləşdirmək üçün burada yaşayan

erməni təxribatçıları hərəkətə keçib Bakıda Opera və Balet Teatrını binasını yandırdılar. Şəhərdə bir neçə ictimai nəqliyyatda partlayışlar törədildi. Milli münaqişə getdikcə alovlanırdı. Münaqişənin gedişində antitürk təbliğatı və terrora səfərbərlik daha da güclənirdi.

1987-ci ildən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni milli separatçılıq təbliğatı açıq və geniş xarakter almışdı. Kreml rəsmilərində antitürk əhval-ruhiyyənin formalaşmasına Qorbaçovun yaxın əhatəsində olan Şahnazaryanlar, Aqanbekyanlar mühüm təsir göstərirdilər. Bir çox erməni yazarlar P.Qazaryan, Z.Balayan, E.Xanzadyan, B.Ulubabayan, S.Kaputikyan və başqalarının tariximizi saxtalaşdıran və azərbaycanlıları təhqir edən qızışdırıcı əsərləri erməni millətçilərinin daha davakar xarakter almasında müstəsna rol oynayırdı [1, 257].

Zori Balayanın "Oçaq" əsəri işıq üzü görəndən sonra Ermənistanda erməni millətçiləri "Ermənistan ermənilər üçündür" şüarı ilə hərəkətə keçdilər. Belə ki, 1988-ci ildə indiki Ermənistan ərazisindən, öz dədə-baba yurdundan 230 min azərbaycanlı qovuldu. Bu zaman 214 nəfər həlak oldu, 1154 nəfər yaralandı [3, 55]. SSRİ Ali Soveti Rəyasət heyəti vəziyyəti nizama salmaq üçün Azərbaycan Respublikasının və xalqının hüquqlarını yenidən kobud surətdə pozaraq 1989-cu il yanvarın 12-də Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında qərar qəbul etdi. A.Volskinin başçılığı ilə Muxtar Vilayət Xalq Deputatları Soveti, onun İcraiyyə Komitəsi hüququnda birbaşa Moskvaya tabe olan Müvəqqəti Xüsusi İdarə Komitəsi təşkil edildi və bununla da Dağlıq Qarabağda Azərbaycan Respublikası tərəfindən yaradılmış bütün dövlət və ictimai orqanların səlahiyyət və fəaliyyətləri dayandırıldı [3, 156]. Xüsusi İdarəçilik Komitəsi vilayətdə qayda-qanunu bərpa etmək əvəzinə onu Azərbaycana bağlayan iqtisadi əlaqələrinin tam qırılmasına, azərbaycanlıların buradan qovulmasına, ermənilərin silahlanmasına və quldur dəstələrində birləşməsinə şərait yaratdı. Moskvanın səlahiyyətli nümayəndəsi A.Volskinin iki xalq arasında kompromis yaratmaq adı altında ermənipərəst missiyası vəziyyəti daha da gərginləşdirdi. Elə bu vaxtdan da Ermənistan ərazisindən Azərbaycanın sərhəd bölgəsinə hücumlar genişlənməyə başladı.

Ermənistanda dövlətin himayəsi ilə altı böyük qeyri-qanuni silahlı qruplaşma təşkil olunmuşdu. Quldurlar hərbi hissələrə hücumlar edir, silah və sursatı ələ keçirirdilər. 1990-cı ildə burada irimiqyaslı hərbi əməliyyatlar qabil olan hərbi hissələrdə erməni mili ordusu erməni ümummilli hərəkatının hərbi təşkilatı, Respublika partiyasının müstəqil ordusu "David Sasuni", "Vretarunor (qisasçılar)", "Haydat (erməni məhkəməsi)" və digər silahlı dəstələrdə 10 minə qədər döyüşçü toplamışdı. Erməni hərbi birləşmələri tez-tez Azərbaycan ərazisinə basqın edirdilər. Ermənistan Mehri rayonu istiqamətində sərnişin

qatarları tez-tez atəşə tutulurdu və sonda Naxçıvan MR blokadaya alındı və Naxçıvana gedən işlək dəmiryolu erməni quldurları tərəfindən dağıdıldı.

1990-cı il yanvarın 12-də düşmən bir neçə hərbi helikopterlə Göy-göl rayonunun (Xanlar) Quşçu kəndinə desant qrupu ataraq dinc əhaliyə vəhşicəsinə divan tutdu. Bu zaman onlarla adam-qadın, uşaq və qoca məhv edildi. Erməni faşist cəlladları Naxçıvanın Kərki kəndinə basqın edib yanvarın 18-də oranı tutdu və 320 yerli sakini oradan qovub çıxardı. Ermənilərin apardıqları bu əməliyyatda sovet qoşun hissələri də iştirak edirdi. Mart ayının 24-də isə gecə 3 erməni hərbi hissəsi rusların köməyi ilə Qazax rayonunun Boğanis-Ayrım kəndinə hücum etdi. Kəndin 7 sakini, o cümlədən 2 qadın və iki aylıq körpə uşaq işgəncə ilə öldürüldükdən sonra yandırıldı. 11 ev talan olundu və yerlə yeksan edildi. İki xalq arasında vəziyyətin gərginləşdiyini görən SSRİ Ali Soveti 1990-cı ildə DQMV və qonşu rayonlarda fövqəladə vəziyyət elan etdi. Bundan sonra Ermənistan ərazisindən Azərbaycanın sərhəd bölgələrinə hücuma keçməyə başladılar. Naxçıvanda vəziyyət daha da acınacaqlı idi. Çünki Naxçıvan Ermənistan tərəfindən blokadaya alınmışdı. Vəziyyəti gərginləşdirmək üçün erməni terrorçuları bütün vasitələrə əl atırdılar (Marşrut avtobusları və sərnişin qatarlarının partladılması və s.) [1, 258].

Azərbaycanın Dağlıq Qarabağ vilayətindəki ermənilər cəzasız qaldıqlarını görüb siyasi fəaliyyətlərini daha da genişləndirdilər. 1991-ci ildən başlayaraq Xankəndində ermənilər mitinq və nümayişləri genişləndirdilər. Bu mitinqlərdə artıq DQMV-nin Azərbaycanın tərkibindən çıxarıb Ermənistana verilməsi şüarını irəli sürdülər. 1991-ci ilin fevralın 21-də Əsgəran rayonunda ermənilərin iki azərbaycanlı gənci qətlə yetirmələri vəziyyəti daha da gərginləşdirdi.

Ermənistanda azərbaycanlılara qarşı törədilən cinayətlərin Moskvada, habelə aldadılmış dünya ictimaiyyəti tərəfindən soyuqqanlılıqla qarşılanması Dağlıq Qarabağda fəaliyyət göstərən erməni separatçılarının əl-qolunu geniş açmağa imkan verdi [8, 186]. Moskva tərəfindən də Dağlıq Qarabağa müstəsna hüquqlar verilmişdi. Eyni zamanda, vilayətin bir çox məsələlərinin həll olunmasını həyata keçirmək üçün birbaşa ittifaq nazirliklərinə və onun qurumlarına tapşırılmışdı. Azərbaycan rəhbərliyi isə Respublikanın hüquqlarının pozulmasına qarşı qəti etiraz etmək əvəzinə, bu qərarların münaqişəni aradan qaldırmaq işində mühüm əhəmiyyət kəsb edəcəyini bildirirdilər.

1991-ci il 30 avqustda Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında Respublikanın dövlət müstəqilliyinin bərpa edilməsi haqqında Bəyanat və xüsusən də oktyabrın 18-də bu barədə Konstitusiya Aktının qəbul edilməsi Dağlıq Qarabağ münaqişəsini daha da kəsginləşdirdi. Bu münaqişə Ermənistanın əli ilə Azərbaycana qarşı aparılan təcavüzkar müharibəyə çevrildi. Azərbaycan ərazisində milli münaqişə ocağı daha alovlandırıldı. Azərbaycanlılar öz ata-baba torpaqlarında növbəti dəfə soyqırıma məruz qaldılar [4, 133].

Azərbaycan müstəqillik əldə etdikdən sonra dünyanın bir çox ölkələri Azərbaycanın müstəqilliyini tanıdı. Lakin buna baxmayaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün təsirli tədbirlər görmədilər. Ona görə də Ermənistanın Azərbaycana qarşı başladığı müharibəni dayandırmaq mümkün olmadı.

Ermənistan və Dağlıq Qarabağdakı erməni silahlı quldurları əvvəl sovet, MDB, sonra isə rus hərbi qüvvələrinin köməyi ilə Dağlıq Qarabağda irimiqyaslı hərbi əməliyyatlara başladılar. Ermənistan Azərbaycanın rayonlarını bir-bir tutaraq aşağı Qarabağı təhlükə altında qoyduğu bir zamanda Bakıda hakimiyyət davası gedirdi. Haqlı olaraq xalqın qabaqcıl ziyalıları dahi siyasətçi Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdilər və Azərbaycanın parçalanmasının və Azərbaycanın bir dövlət kimi mövcudluğunun qorunub saxlanılmasını təmin etdilər. H.Əliyev Bakıya gələrək Ali Sovetin sədri seçildi və yeni ordu quruculuğunu bərpa etdi. Həmçinin erməni quldurlarının torpaqlarımıza etdikləri basqınlar dayandırıldı, tökülən qanların qarşısını almaq mümkün oldu. 1994-cü il mayın 12-də Bişkekdə Erməni-Azərbaycan müharibəsi daimi sülh bağlanana qədər dayandırıldı. 25 il keçməsinə baxmayaraq ermənilərin apardıqları pozuculuq siyasətinin nəticəsi kimi əbədi sülh bağlamaq mümkün olmayıb.

Hal-hazırda ermənilərə dünya ictimaiyyəti də təsir edə bilmir. Çünki erməni lobbisi beynəlxalq təşkilatlara təsir etmək gücünə malikdir. Bütün bunlara baxmayaraq, haqq-ədalət Azərbaycanın tərəfindədir. Çünki biz işğalçı deyilik! Öz ata-babalarımızdan bizə miras qalan bu gözəl yurdumuza sahib çıxırıq və müdafiə edirik.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi VII cilddə VII cild. Bakı, Elm.2003; 626 s.
2. Abdullayev Ə. Azərbaycana qarşı erməni təcavüzü və xarici havadarlıq. Bakı, 2004.601s.
3. Əroğlu Ə. Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası. Bakı, 2002. 199s.
4. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü təhlil-xronika (1987-2011). Bakı, 2012; 207 s. 391 səh.
5. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Bakı, 2015. 320 s.
6. Əliyarlı S. Azərbaycan tarixi. Bakı, 2009. 861 s.
7. Əliyev N. 1917-20-ci illərdə Azərbaycanda türk-müsəlman soyqırımları ilk mənbələrdə. Bakı, Nurlan.2009; 203 s.
8. Emin Arif. Erməni iddialarının siyasi mahiyyəti. Bakı, 2006. 186 s.

9. İbayev V. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində. Bakı, Elm, 2006. 694 s.
10. İsgəndərli A. Azərbaycan həqiqətləri 1917-20-ci illərdə. Bakı, Elm.2012; 186 s.
11. Qasımlı M. Erməni məsələsindən erməni soyqırımına "Gerçək tarix axtarışında (1724-1920)". Bakı, Mürtəcim, 2014. 462s.
12. Mahmudov E. Erməni terroru. Bakı, 2007. 166 s.
13. Ordubadi M.S. Qanlı illər. Bakı, Elm təhsil; 1990, 118 s.